# AĞAC KÖLGƏSİNDƏ

Əbdürrəhimbəy Haqverdiyev

Seçilmiş əsərləri.Cild 1

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

***********************************************************************

DRAM, İKİ PƏRDƏDƏ

İŞTİRAK EDƏNLƏR

M u s t a f a  b ə y--mülkədar.
G ü l m ə m m ə d--onun darğası.
O c a q v e r d  i--kəndli.
G ü l p ə r i--onun qızı, Mustafa bəyin siğəsi.
M i r z ə  K ə r i m--kənd müəllimi.
Kənd əhalisi, qadınlar, cocuqlar.

BİRİNCİ PƏRDƏ

Əhvalat vaqe olur. Mustafa bəyin evinin qabağında. Səhnənin ortasında bir böyük ağac. G ü l p ə r i ağacın altına bir böyük xalça və döşək salıb ətrafına su səpir. Neçə nəfər k ə n d l i, əllərində torba, xurcun, müntəzir durubdurlar. Sair kəndlilər, əllərində oraq, balta, bel, kürək səhnədən gəlib, yığılanlara salam verib keçirlər.

O c a q v e r d i (əlində torba, Gülpəriyə). A qız, ağan hələ gəlməyibdir ki?
G ü l p ə r i. İndicə atdan düşüb, dədə, bu saat gələr. Amma çox hirslidir.
O c a q v e r d i.   Yenə nə xəbərdir?
G ü l p ə r i. Nə olacaq, səhər darğa xəbər gətirdi ki, bu gecə Atakişi oğlu Cəfər su oğurlayıb. Kəhrizdən qol ayırıb, aparıb pambığını suvarıb. Bəy də çox hirsli durub, atını minib getdi. İndi Cəfərin boğazına ip salıb, yəhərin dalına bağlayıb burayadək sürüyüb. Yazığı o qədər döydürübdür ki, bədənində sağ yer qalmayıb. (Səs gəlir.) Budur, ağa gələr.

Hamı kənara çəkilir.

Mustafa bəy (daxil olur). Heyvan uşağı heyvan! (Gülpəriyə.) Ay qız, get ayran gətir. (Gülpəri gedir.) Heyvan uşağı heyvan! (Oturur ağacın dibində.) Nə halal qanırlar, nə haram. Zalım oğlu, pambığa su lazımdır, insan kimi gəl istə, apar. (Camaata). Hamınız haramxorsunuz, hamınız oğrusunuz! Guya allah buyuran yolla su aparıb, pambıq məhsulunun dörddən birini bəyə versəniz, canınız çıxar. Odur ki, allahın qəzəbi sizə keçib, əkinlərinizi gah çəyirtkə yeyir, gah dolu vurur, gah quraq aparır. Özünüz də yaz əkinçi, qış dilənçi. (Gülpəri kasada ayran gətirir, bəy içir.) İndi, budur, buraya yığılıbsınız, nə istəyirsiniz?...

B i r i n c i  k ə n d l i. Ağa, çörəyimiz qurtarıb, bir az arpaya gəlmişik. Özün bilirsən, biçin vaxtına bir şey qalmayıb, xırman vaxtı gətirib verərik.
M u s t a f a  b ə y. Budur.... İki aydan sonra arpa döyəcəksiniz. İndi acından ölürsünüz. Nə qədər arpa lazımdır?
B i r i n c i  k ə n d l i. Adama yarım çuval olsa, bəsdir.
M u s t a f a  b ə y. Adama yarım çuval verərəm, bəşərtiha xırmanda hər biriniz bir çuval arpa verəsiniz!
İ k i n c i  k ə n d l i. Ay ağa, axı biz sənin övladınıq. Bizi niyə belə dara qısnayırsan?
M u s t a f a  b ə y. Əskik olmaz. İstəmirsiniz, canınız çıxsın, acından qırılın. Zalım uşaqları, mənimlə şərikli kəhriz çıxartdırıbsınız ki, suyumu da oğurlayırsınız?!
O c a q v e r d  i. Uşaqlar, danışıq lazım deyil, bəy bir çuval istəyir, biz də bir çuval verərik. Gəlin bəri.
M u s t a f a  b ə y. Ocaqverdi, sən çox baş aparırsan. Yoxsa güman edirsən ki, qızın mənim evimdədir, sənə mən heç bir şey edə bilmərəm? Vallah, səni Cəfərdən pis kökə qoyaram!
O c a q v e p d i. Bəy, bizim canımız bərkdir. Hər şeyə davamımız var, nə olar, döyəndə döyərsən. Qızımı zorla evimdən çəkdirib aparıb özünə siğə elədin, əlimdən nə gəldi ki, yenə də nə gəlsin?
M u s t a f a  b ə y. Sənin qızın mənim evimdə arvaddır, sən gərək fəxr eləyəsən. Nəinki boş-boş danışırsan. (Mirzə Kərim görünür.) Hamınızı, bax bu gələn (göstərir) xarab eləyib.

Ocaqverdi kəndlilərə əl edir, hamısı gedirlər.

G ü l p ə r i. A bəy, axı Cəfər kişi ölür. Bədənində salamat yer yoxdur. Ölü kimi yıxılıb, nəfəsi də çıxmayır. Boğazından bir damcı su keçməyir.
M u s t a f a  b ə y. Heç zad olmaz. Rəiyyət canı it canından bərk olar. Get gedələrə deginən bədəninə təpitmədən zaddan salsınlar.

Gülpəri gedir.

M i r z ə  K ə r i m (daxil olur). Salaməleyküm.
M u s t a f a  b ə y. Kommunist nə olduğunu camaat bilmir (Mirzə əyləşir.) Təzə qəzet alıbsanmı? Nə var nə yox, yenə nə yalan-palan yazıblar?
M i r z ə  K ə r i m. Yalan-palandan sonra sənə söylərəm. Ancaq, bəy, yaxşı iş görmürsünüz. İndi bu saat Cəfərin oğlu gəlmişdi yanıma, deyir, bəy atamı o qədər döydürübdür ki, atam ölür. Bəy, doğrusu, belə işlərin axırı xeyir olmaz.
M u s t a f a  b ə y.  Mirzə Kərim, bu kəndin içində bircə ağıllı adam sənsən. Sən də bu cür danışanda mən təəccüb edirəm.

Mən xərc çəkmişəm, pul tökmüşəm, qat-qat qabıq  qoyub,  kəhriz çıxartmışam. Camaatdan mən suyu müzayiqə etmirəm,
gəlsinlər aparsınlar. Amma qaydası ilə, allah buyuran yolla. Nəinki oğurluqla. Sən də, eşidirəm, camaata nəsihət etməkdən,
onları başına yığıb hamısını da xarab eləyirsən. Budur, camaat tamam itaətdən çıxıb. Camaatı yığıb onlara qəzet
oxuyursan, nə bilim, Rusiyyədə bəyləri güllə qabağına qoyurlar, mülklərini alıb camaata verirlər, daha nə qayırırlar
bilmirəm. Axır bunlar nəyə lazımdır? Nə qədər ki sən bu kəndə gəlməmişdin, camaat bundan yumşaq idi. İndi uşağı da
dindirmək olmur.
M i r z ə   K ə r i m. Bəy, camaatın müəllimi mən deyiləm, vaxt özü müəllimdir,   zəmanə özü   müəllimdir. Qaranlıqda
qalanlarğş, işıq arzusunda, əsarətdə, zindanda qalanların azadəlik arzusunda olmaları təbiidir. Dörd ətrafı işıq tutan
zaman qapıları    basıb camaatı işıqdan məhrum etməyin nəticəsi bu olar ki, təqazayi-vaxt o qapını açar və bağlayanı
cəzasına yetirər. Bağışlayın, bəy, söhbət düşübdür, danışıram. Odur, Cəfər kişinin boğazına ip salıb sürütdüyübsən: və
özünü də o qədər döydürübsən ki, indiyədək özünə gəlməyib. Bunun adını nə qoymaq olar? Məgər indi xan əsridir? Camaatın
ayağı Tiflisdə, Bakıda,  Gəncədə. Hamısının gözləri  açılıb, hamısı    ayılıblar. Naçalniklərə, pristavlara, yasovula bel
bağlamaq olmaz. Camaat qisası sel tək axarsa, onun qabağını almaq çətin olar. Siz indi buyurdunuz ki, pul qoyub kəhriz
çıxartmışam. Haradandır o pul? O pul rəiyyətlərin əziyyətinin nəticəsi deyilmi? Buyurursunuz  qat-qat  qabıq qoymuşam.  Xeyr,
yalandır.  Siz  qabıq qoymamışsınız. O qabığı bu fəqir camaat qoyub. Siz ancaq fəhlənin başının üstünü zalım kimi
kəsdirib, tamaşa eləyibsiniz. Kəhrizi çıxaran fəhlədir. Bunlar keçəndən sonra Cəfər kişi su oğurlayıb. Sənin oğlun ona
suyu bir gecəlik satıb, pulunu alıb şəhərə kefə gedib. Bunu mən təhqiq etmişəm.
M u s t a f a   b ə y. Qurtardın?
M i r z ə   K ə r i m. Bəli, bəy, qurtardım. Bağışlayın, başağrısı oldu.
M u s t a f a   b ə y. İndi də mən deyim.
M i r z ə  K ə r i m.  Buyurunuz.
M u s t a f a  b ə y.  Bilirsən, Mirzə Kərim, mən sənin xatırını çox istəyirəm. Çünki doğrudan da başıdolu oğlansan. Amma
səndən mən təvəqqe edirəm, gündüz gedib şkolada dərsini verib, qayıdıb evində oturasan. Səndən də qabaq burada müəllim var
idi. Nə camaat onu tanıyırdı, nə o camaatı. Sən uçitelsən, dərsinə məşğul ol. Sənin nə borcuna, bəy belə gəldi, rəiyyət belə
getdi. Qəzet alırsan, özün oxu. Yığıb onlara qəzet oxumaq lazım deyil. Camaat qəzeti nə eləyir? Qoy getsinlər əkinlərinin,
biçinlərinin dalınca. Yenə sənə deyirəm, ağıllı ol, sən bir ağıllı oğlansan. Bir kasıb kişinin oğlusan, gəlib burada bir

parça çörək yeyirsən. Mən istəmirəm ki, bizim aramızda inciklik olsun.
M i r z ə K ə r i m. Bəy, mən sizin xeyrinizi dedim. Mən yoxsul bir müəllim babayam. Haraya getsəm, beş uşağa dərs verib
dolanacağam. Mülküm yox, evim yox, malım yox, qovulmaqdan da qorxmuram. Dustaqxanaya saldırarsan, bir parça çörək yeyib
dustaqlara dərs verərəm. Sürgün elətdirərsən, haraya getsəm, müəllimlik mənə çörək verəcək. Amma vay sizin halınıza. Buna
görə də mən sizin öz məsləhətinizi deyirəm. Yoxsa, bir ehtiyacım yoxdur. Axırı sizin üçün pis keçər.
M u s t a f a b ə y. Mənim üçün pis keçərsə, əlacını da özüm elərəm. Səndən təvəqqe edirəm camaatın işlərinə qarışmayasan.
Hamını xarab edibsən. (Bu halda Ocaqverdi, əlində torba, keçir.) Nə halalı haramdan seçirlər, nə aldıqlarını verirlər.
Budur, həman bu Ocaqverdi üç il tamamdır, beş manat alıb vermir.
O c a q v e r d i (dayanır). Bəy, necə beş manat?
M u s t a f a b ə y. Yadındadırmı ki, sənin evində qonaq qalan kazakın qamçısı itmişdi. Kazak səni ağac altına salıb
öldürürdü. Beş manat kazaka verdim, səni qurtardım.
O c a q v e r d i. Yadımdadır.
M u s t a f a b ə y. Vaxti ki, yadındadır, niyə indiyədək borcunu vermirsən?
O c a q v e r d i. Bəy, mən səndən təvəqqe elədim ki, kazaka pul verib məni qurtarasan? Mənim belim ata-babadan ağaca öyrənib.
Yüz dəfə sən döyübsən, qoy bir dəfə də kazak döysün. Nə olardı, ölməyəcəkdim ki! Əlbəttə, döyüb, döyüb çıxıb gedərdi və borc
pul lazım olsaydı, aldığım yeri bilərdim. Bir də mən belə güman elədim ki, sən o pulu kazaka peşkəş verirsən. İndi ki, borc
hesab edirsən, baş üstə, gedib bu saat gətirim. (Mirzəyə.) Mirzə Kərim, gör yanında pul varsa, beş manat ver. Sabah həftə
bazarına inək aparacağam satmağa, satıb gətirib pulunu verərəm.

Mirzə əlini salır cibinə.

M u s t a f a b ə y. Bəs mənim pulum üç ildir qalıb, onun müamiləsi necə olsun? Mən hesab eləmişəm, sənin mənə olan
borcun müamiləsi ilə bir yerdə iyirmi dörd manat elər.
M i r z ə K ə r i m. Bəy, siz belə etməyin, belə işlərə insaf yol verməz!
M u s t a f a b ə y. Mən gərək bunların nəfəsini kəsim ki, ağılları başlarına gəlsin.
O c a q v e r d i. Mirzə Kərim, heç bir söz lazım deyil. Belə dövlətli bəy istəyən yerdə, mən çulucırıq verəcəyəm. İstər iyirmi
dörd manat olmasın, yüz iyirmi dörd manat olsun. Bəy, sabah pulun çatar. Bir günün də müamiləsini gələrsən üstünə, hər nə
qədər edərsə, alarsan. Mən kasıb babayam, budur, arpa aparıram, çörək eləyib yeyəcəyəm. Amma sənə plov lazımdır, üstündə
yağlı əmlik əti olsun.
M u s t a f a b ə y (hirsli). Di, sürün get. Gözünə girsin iyirmi dörd manat.

O c a q v e r d i. Xeyr, bəy, gözümə girməz, qəpiyinədək gətirib verəcəyəm. Yeyib gecələr də rahat yatasan! (Gedip.)

C a m a a t, dallarında torba, keçirlər.

M u s t a f a b ə y. Bihəya oğlu bihəyanın danışığına bax! Mirzə Kərim, bunlar hamısı sənin kələyindir.
M i r z ə K ə r i m. Xeyr, bəy, ciyər yananda nəfəs əvəzinə alov çıxar.
U ş a q (qəzet gətirir). Mirzə, dəftərxanadan göndəriblər.
M i r z ə K ə r i m (qəzeti açır). Qəribə işdir! Şəhərdən uzaq olmağın səməri budur.
M u s t a f a b ə y. Nə olubdur?
M i r z ə K ə r i m. Təzə qəzetdir, Bakıdan gəlib, "Kommunist".
M u s t a f a b ə y. Kommunist? Yəni nə olsun?
M i r z ə K ə r i m. Kommunist nə olduğunu camaat sizə anladar. Bakıda Şura hökuməti elan olundu. Dövlətlilərin mal,
əmlakı keçir ümumi camaat ixtiyarına. Fabriklər, zavodlar hamısı camaat malı olur. Bəylərin, xanların yerləri hamısı
əllərindən alınıb camaata, rəncbərlərə verilir.
M u s t a f a b ə y. Yalandır, yalan! Elə şey ola bilməz. Kimin nə ixtiyarı var mənim ata-babadan qalan mal-dövlətimi,
əmlakımı əlimdən alıb, camaata paylasın?! Yalandır!
M i r z ə K ə r i m (qəzeti göstərir). Budur, baxın!
M u s t a f a b ə y. Nəyə baxacağam! Hansı savadla baxacağam? Bu yalandır. Görəsən hansı əli dinc durmaz bu qəzeti yazıb
göndəribdir. Mirzə Kərim, təvəqqe edirəm, bu qəzeti bir adama göstərmə. Mən şəhərə atlı göndərərəm, bir səhih xəbər
gətirsin. (Çağırır.) Gülməmməd! (Gülməmməd daxil olur.) Gərək bu saat atı minib şəhəpə gedəsən.
G ü l m ə m m ə d. Bəy, Cəfər öldü. İndi necə eləyək?
M u s t a f a b ə y. Nə danışırsan? Necə öldü?...
G ü l m ə m m ə d. Həqiqət, öldü.
M u s t a f a b ə y (hövlnak qalxır). Gedək!(Ürəyi darıxmış yıxılır Gülməmmədin qucağına.)
M i r z ə K ə r i m. Ölməz, qorxma, yuxuya gedib. Ayılıb başqa bir dünya görəcək. Qisas dünyası, qırmızı dünya!...

P Ə R D Ə.

## İKİNCİ PƏRDƏ

Həmin yerdə. Mustafa bəy və Gülməmməd söhbət edirlər.

M u s t a f a  b ə y. A balam, bu kəndə nə olub? Xarabaya dönüb, bir insan görünmür.
G ü l m ə m m ə d. Camaat axşamdan gedib, vaxtdır, indi qayıdarlar.
M u s t a f a  b ə y. Haraya gediblər?
G ü l m ə m m ə d. Həftəbazarına. Axşam yüzbaşı hökm gətirmişdi ki, Bakıda təzə hökumət əmələ gəlib. Nə bilim, deyirlər ki,
bəylərin yerlərini bütün alıb rəiyyətə paylayacaqlar. İndi həftə bazarına hökumət adamları gəlib. Camaatı oraya çağırırlar
ki, təzə zakonu onlara xəbər versinlər. Bu xəbər gələn kimi uçitel Mirzə Kərim camaatı yığıb başına dedi: gərək kənddə bir
nəfər başıpapaqlı qalmaya. Hamını da həftə bazarına apardı. Yüzbaşının da ayağına buxov vurub, tövləyə saldılar.
Camaatdan ayağına gücü çatan, həmin saat piyada yola düşdü. Qalanı da adama bir at, iki adama bir at minib getdilər.
M u s t a f a  b ə y. Bəs bunu niyə mənə xəbər vermədin?
G ü l m ə m m ə d. O vədə sən yatmışdın. Oyatmağa cürət eləmədim. Bir də, bəy, xəbər verməyin nə faydası?! Buranın bəyi Mirzə
Kərimdir. Camaatın uşaqlarının başlarını tutub bir-bir kəsə, ondan inciməzlər.
M u s t a f a  b ə y. Mirzə Kərim də gedib?
G ü l m ə m m əd. Məgər bilmirsən ki, camaat işlərində həmişə qabağa düşən Mirzə Kərimdir? Vaxtında cilovunu çəkmədin.
İndi də dalını bağlamaq olmayır.
M u s t a f a  b ə y. Nə çarə qılım? Pristava neçə dəfə dedim. Naçalnik bizə gələndə ona yalvardım, bu nadürüstü mənim
başımdan rədd eləsin, söz verdi. Sonra şkolalar böyüyü gəldi. O da deyir ki, bəy, indiyə tək bu kənd şkolası on-on beşdən
artıq şagird görməyib. Amma Mirzə Kərim yetmişdən artıq yığıb. Belə əvəzsiz müəllimi heç vaxt götürmək olmaz. Deyir, əgər
şkola tutsa, camaat ona iki yüz uşaq verər. Xülasə, ondan da əlac olmadı. İndi gərək başımızı noxtalayıb verək oğul-uşaq
əlinə!
G ü l m ə m m ə d. Bəy, özün də boşluq eləyibsən. Nə olardı, gədələrin birinə min manat verəydin, qulağının dibinə bir güllə
qoyaydılar, yataydı yerə!...
M u s t a f a  b ə y. Elə onu de də! O da mənim axmaqlığımdan! Bundan sonra onun qabağında durmaq olacaq?!
G ü l m ə m m ə d. Bəy, mən bundan da bədtərindən qorxuram.
M u s t a f a  b ə y. Necə bədtərindən?!
G ü l m ə m m ə d. Qorxuram, canımız da əldən gedə. Yüzbaşının ayağına buxov vuran kimi, bizə də əl qatarlar. Ələlxüsus ki,
həftəbazarından ağzı yelli gələlər. Hətta bunu sizə demək istəyirdim. Gedəndə deyirdi ki, bazardan qayıdandan sonra Mustafa
bəyi yüzbaşıdan pis kökə qoyacağam!...
M u s t a f a  b ə y (fikrə gedir). Yaman günə düşmüşük. Doğrudan da haramzadadan nə desən çıxar. Bilirsən, Gülməmməd, biz
burada dayana bilməyəcəyik. Uşaqlara deginən atları çəksinlər, minək, bir yana çıxaq.
G ü l m ə m m ə d.   At nə gəzir minəsən.

M u s t a f a  b ə y. Necə? Nə söyləyirsən!?
G ü l m ə m m ə d. Söyləmək yoxdur, axşam mehtər töylənin qapısını açıb, atların hamısını verdi camaata! Sənin kürən
atını da Mirzə Kərim mindi.
M u s t a f a  b ə y. Bircə o nadürüst mehtəri buraya çağır, onun atasına od vurum. Tez çağır!
G ü l m ə m m ə d. Burada mehtər nə gəzir, çağırım! O da mənim atımı minib gedib.
M u s t a f  a  b ə y. Bəs, a bədbəxt oğlu, niyə gəlib mənə xəbər vermədin? Yatmışdım, ayağımdan sürüyüb oyada idin.
G ü l m ə m m ə d. Çox da oyatdım, nə faydası? Bir az da hörmətin gedəcək idi. Mehtərə mən deyəndə ki, ay balam, mənim atımı
niyə minirsən, dedi, dayan, bazardan gəlib sənin özünü minəcəyəm. Hələ çox söz dedi, doğrusu, demək istəmirəm. (Bir az dayanıb.)
Hələ sənin də haqqında bir az artıq-əskik danışdı. Deyir, ağanla sən mənə eşşək arpası yedirtmisiniz. İndi də plovu yeyib
arpanı sizə yedirdəcəyəm. Xülasə, çox baş apardı.
M u s t a f a  b ə y. Yox, iş qorxuludur. (Gülməmmədə.) Xata görünür, uşaqlara deginən ki, hamısı yaraqlansınlar.
G ü l m ə m m ə d. Bəy, bu kənddə başıpapaqlı bir sənsən, bir də mən!
M u s t a f a  b ə y. Bəs nə etməli, nə çarə etməli?
G ü l m ə m m ə d. Özünü toxtaq saxla, budur, camaat qayıdır.
M u s t a f a  b ə y (həyəcanla gəzir). Yox, yaman yerdə axşamladıq. Hamısını eləyən o Mirzə Kərimdir. (Cavan bir kəndli
səhnədən keçir.) Ay gədə, bir dayan görüm. (Kəndli dayanıb əyri-əyri baxır.) Keçəndə niyə salam vermirsən? (Kəndli cavab
verməyib keçərkən.) A gədə bir dayan!
C a v a n  k ə n d l i (dayanır). Nə deyirsən?
M u s t a f a  b ə y. Haradan gəlirsən?
C a v a n  k ə n d l i. Həftəbazarından.
M u s t a f a  b ə y. O Bakıdan gələnlər kimdir? Nə danışırdılar?
C a v a n  k ə n d l i. İndi vaxtım yoxdur, sonra deyərəm. (Gedir.)
M u s t a f a  b ə y. Bihəyanı görürsən!
G ü l m ə m m ə d.  Allah bədtərindən saxlasın.

M i r z ə  K ə r i m  səhnədən keçir.

M u s t a f a  b ə y. Mirzə Kərim, Mirzə Kərim. Bir buraya zəhmət çək.

C a m a a t  dəstə ilə keçir.

M i r z ə  K ə r i m.  Nə buyurursan, bəy?
M u s t a f a  b ə y.  Bircə sən bu işləri mənə başa sal!
M i r z ə  K ə r i m. Mən, doğrusu, heç bir şey başa sala bilmərəm!
M u s t a f a  b ə y. Bu Bakıdan gələnlər necə şeydir?
M i r z ə  K ə r i m. Bəy, mən bir neçə illərdir ki, bu barədə danışırdım. İndi dəxi sözüm yoxdur. Bundan sonra camaatla

özünüz danışacaqsınız. Mən vəzifəmi qurtarmışam!
M u s t a f a b ə y. Doğrusu, mirzə, camaatın halını pis görürəm. Qorxuram, məni bihürmət eləyələr. Sən onlara nəsihət elə.
Deginən ağsaqqal ağanızdır, onun hörməti vacibdir. Əgər istəmirlər, baş üstə, mən elə bu gün buradan baş götürüb gedərəm.
Kənd də sizin, mülk də sizin, əkin də, su da, heyvanlar da....
M i r z ə K ə r i m. Bəy, bunun cavabını bir neçə gün bundan qabaq döydürüb öldürdüyünüz Atakişi oğlu Cəfərin oğlu sizə
verər. Mən çox dedim. Hərgah mənim dediklərimə əməl olunsaydı, girə də düşməzdiniz!
M u s t a f a b ə y. Mirzə Kərim, avamam, savadım yoxdur, dərsim yoxdur. Başa düşməmişəm. Amandır, camaat hamısı sənin
sözünə baxır. Gərək mənə sən bir təhər çəkəsən!
M i r z ə K ə r i m. Səhv edirsiniz, bəy. Heç bir savad əhli sən görən işi bacarmaz. Heç bir alim ustadlıqda sizə çatmaz! Siz
nə buyurursunuz! Bağışlayın, mənim əlimdən heç bir şey gəlməz. Budur, camaat gəlir. Söhbəti eləyə bilərsiniz.

Mirzə Kərim çəkilir kənara. Bir dəstə c a m a a t, qabağında O c a q v e r d i, əlində üstü qırmızı
örtülü tabaq daxil olur. Səhnə o ğ u l - u ş a q l a dolur.

O c a q v e r d i (baş əyir). Bəy, sən indiyədək bizə ağalıq eləyibsən. Babalarımız sənin babalarına qulluq edib. Atalarımız
atanızın qapısında olublar. Özümüz də özünüzə nökər olmuşuq. İndi də işlər dəyişib. Hamı bəylərin yerləri və dövlətləri
rəiyyətə paylanır. Biz də borc bilirik, gəlib səndən indiyədək gördüyümüz insaniyyətin, yaxşılığın razılığını edək. Həmişə
qapına taxıla, pula gəlmişik, çörəyə gəlmişik, heç vədə əliboş yola salmayıbsan! Biz səndən çox razıyıq. Allah səndən razı
olsun.
M u s t a f a b ə y. Camaat, allah bilir ki, mən heç vədə sizi öz övladımdan seçməmişəm. Həmişə sizin xoşbəxtliyinizi
istəmişəm. Doğrudur, bəzinizi incitmişəm, ola bilsin döymüşəm, ya söymüşəm. Hamısını atalıq, böyüklük cəhətincə
eləmişəm. Amma yenə də təvəqqe edirəm məni bağışlayasınız!... Mən özüm öz xoşumla var-yoxumu sizə verib, bu gün buradan
gedəcəyəm.
O c a q v e r d i. Allah sizdən razı olsun, ağa! Biz səndən çox razıyıq və səni buradan heç yana qoymayacağıq gedəsən! Gərək
həmişəlik bizim içimizdə qalasan. (Tabağı qoyur yerə.) Bu peşkəşi də təvəqqe edirik biz nökərlərinizdən qəbul edəsən.

Mustafa bəy peşkəşi alır, örtüyü götürdükdə bir dənə ilmək hörülmüş kəndir görüb rəngi qaçır və özünü itirir.

O c a q v e r d i. Bəy, bu bir şey deyil, bu həmin Cəfər kişinin boğazına salıb sürütdürdüyün kəndirdir. Bilirsən, bəy, sən bu ağacı çox sevirsən və həmişə də deyirdin ki, mən vəsiyyət edəcəyəm ki, öləndə məni bu ağacın dibində basdırsınlar. İndi biz də belə məsləhət görmüşük ki, səni bu ağacdan asaq, həmin bu qanlı iplə və bədənini də öz vəsiyyətinə görə burada basdıraq! Ta həmişəlik bu sevgili ağacın kölgəsində yatasan. Bu istəkli nökərin Gülməmmədi də səndən ayırmayacağıq. Zəhmət olmasa, ayağa qalx! (Mustafa bəy istəyir söz desin, dili tutulur, söz deyə bilmir.) Uşaqlar, deyəsən bəyin qıçı ağrıyır, ayağa qalxa bilmir. Heç zəhmət verməyin! Gəlin özünüz götürün! (Bəyə) Bəy, heç sizə əziyyət olmayacaq. Kəndir qayda ilə sabunlanıbdır. Üç dəqiqədən sonra ruhun cənnətdə plov yeyəcək. Gətirin, uşaqlar. (Neçə nəfər cavan, bəyi gətirib ağacdan asırlar.) Gülməmmədin də qollarını bağlayın.

Gülməmmədi də tuturlar.

G ü l p ə r i (daxil olur). Bunumu istəyirdin, Mustafa bəy? İndi al payını! Camaat, mən sizin qızınızam. Bu zalım məni güclə atamın əlindən alıb, gətirib zindana salıb, indiyədək əzab verirdi. İndi bu cəzasına çatdı. Mən də bunun qapısını sizə açıram. Gəlin nə qədər bunun pulu, malı, dövləti, qızılı var, hamısını aparın. Hamısı sizə qurbandır.

Camaat tökülüşürlər.

M i r z ə K ə r i m (qabağa yeriyir). Camaat, sakit olun. (Hamı sakit olur.) Mustafa bəyin dövlətindən gərək heç şey dağılmasın. Hamısı gərək siyahiyə salınsın və qayda üzrə camaat vəkillərinin ixtiyarına verilsin ki, onlar da camaata təqsim etsinlər. İndi, camaat, min illərlə boynumuzda olan əsarət zənciri qırıldı və bu əmlakə siz sahib oldunuz. Siz də gərək sübut edəsiniz ki, bu nemətlərə layiqsiniz. İndiyədək bəylərə işləmisiniz, indi özünüzə işləyəcəksiniz. Bəy sizi zorla işlədib, indi isə özünüz həvəslə uşaqlı-böyüklü çalışasınız və ikiqat, üçqat zəhmət çəkib bu ixtiyarınıza keçən mülkü abad edəsiniz. İndiyə qədər gündüzlər işləyib gecələr yatıbsınız. İndi isə lazım olsa gərək gecə də işləyəsiniz. Gərək sizin hər birinizin daxmalar əvəzinə gözəl imarətiniz olsun. Qapınızda heyvanlarınız olsun. Evlərinizdə elektrik çıraqları yansın. Yavan çörək əvəzinə plov yeyəsiniz. Bunun hamısı zəhmətlə olar. İndiyədək hökumət pulun əlində idi. Bundan sonra hökumət zəhmətkeşlərin əlində olacaq. Ağ əllərin dünyası məhv oldu. İndi yaşasın qabarlı əllər!...

C a m a a t. Yaşasın Mirzə Kərim! Yaşasın bizim müəllimimiz!...

M i r z ə K ə r i m. Analar, bacılar! Siz də cəhrələrinizi, daraqlarınızı sazlayın, başlayın yun əyirməyə, şal toxumağa.
Sizin yolunuzda qanlar töküləcək. Çünki hələ dünya təmizlənməyibdir. Mustafa bəylər çoxdur. Bu yolda çalışan cavanlarımıza
libas lazımdır. Bunu siz analar verəcəksiniz. Xırda uşaqlar da gərək məktəbə getsinlər. Çünki bizim gələcək ümidlərimiz
balalardır. Məktəbimiz dar olmağına görə Mustafa bəyin evini məktəb və camaat evi qayırarıq. Haydı, qardaşlar, ürəklə
yapışın kotanın dəstəsindən! Yaşasın zəhmət! Məhv olsun zülm!
C a m a a t. Yaşasın zəhmət! Yaşasın Mirzə Kərim!
M i r z ə K ə r i m. Yaşasın camaat hökuməti!

P Ə R D Ə